

## Bernard ŞOU:

Xoşbəxtlik qapınızı gündə azı bir yol döyür, amma təəssüf ki, o an evdə olmursunuz.

***

Getdiyiniz yolda heç hansı əngəl yoxsa, bilin ki, o yol sizi heç yerə aparmır.

***

Əgər düşünmədən deyibsinizsə, demək, düşündüyünüzü deyibsiniz.

***

Sizin ikinci dəfə ilkin təəssürat yaratmaq imkanınız bir daha olmayacaq.

***

Çox az adam olar ki, ildə bir neçə dəfədən artıq düşünə. Mən həftədə bir-iki kərə düşündüm də, dünyada məşhur oldum.

***

Bəyənmədiyiniz nəyisə alqışlamaq yalan danışmağın neçə növündən biridir.

***

Əbədi yaşamağa can atmayın, onsuz da heç nə alınmayacaq.

***

Hərəkət halındakı cəhalətdən də qorxunc heç bir qüvvə yoxdur.

***

Bizə indi dəlilər lazımdır. Bir görün ağlı başında olanlar bizi hara gətirib çıxarıblar.

***

Milyonçu olmaq istəmirəm, sadəcə, milyonçu kimi yaşamaq istəyirəm.

***

Mütaliə Don Kixotu centlmen eləmişdi, amma oxuduqlarına inanmağı onu divanəyə çevirdi.

***

Nə elədiyimizi anlasaydıq, heç vaxt heç nə eləməzdik.

***

Adamlar ən çox da özlərinə dəxli olmayan işlərlə maraqlanırlar.

***

Mən mübarizə aparmağı sevmirəm, mən qalib gəlməyi sevirəm.

***

İnsan ən yüksək zirvələrə belə qalxmağı bacarar, amma orada uzun müddət duruş gətirə bilməz.

***

Bizim dünyamızda təhlükə ondan qorxanları həmişə təhdid edir.

***

Nifrət – qorxağın keçirdiyi qorxuya görə intiqamıdır.

***

Mənim şöhrətim mənim hər uğursuzluğumla birgə boy atıb.

***

Hərdən adamları güldürmək lazımdır ki, sizi asmaq niyyətlərindən onları yayındırasınız.

***

Əgər oxuyanları yoxdursa, kitablar bundan qazanclı çıxır. Məsələn, klassiklərimizə nəzər yetirin.



***

Mənim lağlağı tərzim – doğrunu söyləməkdir.

***

Ən başlıcası – can evində sahman yaratmaqdır.

***

Əgər ağıllanmaq istəyi yoxdursa, həyat öyrətməyəcək.

***

Uzun yaşadıqca bir o qədər çox bu qənaətə gəlirəm ki, Günəş sistemində Yer dəlilər evi vəzifəsini görür.

***

Kütlənin onda birindən çoxunun təriflədiyi əsər yandırılmalıdır.

***

Azadlıq – cavabdehlik deməkdir. Elə bu üzdəndi əksər adam ondan qorxur.

***

Yalançı üçün ən böyük cəza başqalarının ona inanmamağı yox, onun özünün artıq başqalarına inana bilməməyidir.

***

Mənim yoxluğum əgər sənin həyatında heç nəyi dəyişmirsə, o zaman orada var olmağımın da heç hansı anlamı qalmır.

***

Acıqlı olduğunuz hər dəqiqə ərzində xoşbəxtliyin altmış anı itirilir.

***

Mən kəlməbaşı özümə istinad edirəm. Bu da danışığıma kəskinlik qatır.

***

Əsrimiz – bambılıların əsridir.

***

Adamların ikicə faizi düşünür, üç faizi elə sanır ki, düşünür, doxsan beş faizi isə düşünməkdən ölməyi üstün tutur.

***

Göydə quş kimi uçmağı, suda balıq kimi üzməyi bacardığımız indiki vaxtda bir tək Yerdə adam kimi yaşamağı öyrənməyimiz qalıb!

***

Bu dünyada əbədi səadətdən daha qorxunc heç nə yoxdur və ola bilməz.



## Ayzek AZİMOV:

Həyatda məgər suallara cavab axtarmaqdan da gözəl nə isə varmı?!

***

Səni gülümsəməyə vadar edən çöhrədə cazibədar nə isə var.

***

Əgər həkim mənə desə ki, beşcə dəqiqə ömrün qalıb, heç dizimə-başıma döymərəm. Sadəcə, yazı makinamda bir az daha sürətli yazaram.

***

Xudavəndi-aləm bizim hamımızı sevir, amma heç birimizin də heyranı deyil.

***

Yer üzünün insanları dostluq eləməlidirlər. Düşünmürəm ki, hamını bir-birini sevməyə məcbur etmək olar, ancaq onların arasındakı kini-küdurəti yox etmək istərdim...

***

Səhraya çevirdiyimiz Yer üzünü görəndə gələcək nəsillər bizə necə bəraət qazandıracaqlar?

***

Mən sürətlə oxumağı bacarmıram. Mən sürətli anlaya bilirəm.

***

Madam ən əvvəl təsəlliyə ehtiyac duyuruq, deməli, həyat üzü qürubadır.

***

Bəxtiyar o adamdır ki, mübarizə aparmaq üçün iradə gücü var.

***

Nəzakətlə sual verirəmsə, zənnimcə, nəzakətlə cavab almaq haqqım var.

***

Əsrimizin insanının bütün sıxıntılarının kökündə onun təbiətdən ayrı düşməyi dayanır.

***

Doğrusu, mən az oxuyuram. Çox yazanda oxumağa vaxtın qalmır.

***

Tam ciddi olaraq düşünürəm ki, elmi fantastika bəşəriyyəti birləşdirən həlqələrdən biridir.

***

İnsanın yüksək əxlaqi keyfiyyətləri xeyirxah əməllər törətməsinə heç vaxt mane olmamalıdır.

***

Həm ümid, həm qorxu əsl həqiqətdə zəifliyin təzahürüdür.

***

Düzgün məntiqi mühakimələr silsiləsi mütləq həqiqətə gətirib çıxaracaqdır.

***

Hətta əbədiyyətin özündə belə anı uzatmaq olmaz.

***

İnsan qəribə varlıqdır; heç bir ümid yeri qalmayanda, baxırsan ki, ümidlənir.

***

Keçmişdə olduğu kimi gələcəkdə də, əminəm ki, kitabı heç nə əvəz etməyəcək.

***

Qalaktika balaca ha deyil; necə yaşamağı özü seçər.

***

Xudavəndi-aləmin yaratdığı dünyada hər kəsə yer var. Zavallı binəvalar, hətta sizinçün də yer var.

***

İnsanlar arasında yaşadığın zaman, ən vacib olanı, onlarla sürtünməni ən aşağı həddə endirməkdir.

***

Maddiyyat aləmini yalnız onun hüdudlarından qırağa çıxmaqla dərk etmək mümkündür.

***

Heç olmasa, ən azı bir nəfərin ədalətsiz saymadığı bir qanun yoxdur.



## Rey BREDBERİ:

Jül Vern – mənim atamdır. Herbert Uells – çox-çox müdrik əmimdir. Edqar Allan Po – dayım oğludur... Siz indi qohum-əqrəbamı tanıyırsınız...

***

Gülümsə ki, fəlakətə keyf yaşatmayasan.

***

O adamları xilas etmək lazımdır ki, onlar buna layiqdirlər.

***

Kitabları yandırmaqdan da betər dəhşətli cinayətlər var. Məsələn, onları oxumamaq...

***

Oxunmayan kitablar intiqam almağı bacarır.

***

İndi oxunanları yazmaq ürəyimi bulandırır.

***

Bizim boş vaxtımız kifayət qədərdir. Di gəl, düşünməyə vaxtımız varmı?

***

Adamların indi bir-birlərinə ayıracaq vaxtları yoxdur.

***

Yaşamaq üçün həyatın mənasını arayıb-axtarmağı tərgitmək lazımdır. Həyat elə özü-özlüyündə cavabdır.

***

Mənim üçün ən başlıcası – heyrətlənməkdən qalmamaqdır.

***

Mən vicdanlıydım və elə bu üzdən də məni görən gözləri yox idi.

***

Möcüzə baş verən vaxt heç vədə onu şübhə altına almayın.

***

Diqqət yetirmisinizmi ki, indi insanlar bir-birlərinə qarşı necə amansızdırlar?!

***

Mən kitabxanada təhsil almışam. Özü də tamamən pulsuz.

***

Əgər sənə nə isə gərəkdirsə, onu özün əldə elə.

***

Əsl alim – romantikdir. Yalnız romantiklər hər şeyin mümkünlüyünə inanırlar.

***

Xeyir Şərə hər zaman şər olaraq görsənəcək.

***

Bəşər övladı necə yolunu azmışdısa, elə də qalıbdı.

***

İnsanlara etibar eləmək olmaz – bax bütün faciə də bundadır.

***

Gözlərini geniş aç və elə bir acgözlüklə yaşa ki, sanasan, onca saniyə sonra öləcəksən.

***

Allah-təala bizə ağlı verib ondan ötrü ki, xəlq olunanları araşdırıb öyrənək, daha falçılıq eləyib gələcəkdə bizi nə gözlədiyindən qorxmaq üçün verməyib...

***

Şərin bir tək gücü var ki, həmən gücü də ona elə biz özümüz veririk.

***

İnsanın adiliklər çərçivəsindən kənara çıxan şeylərə dözümü yoxdur.

***

Ümidi itirmək olmaz. Hər şey itiriləndən sonra ümid qalır. Hər zaman nəyə isə inanmaq gərək.

***

Bizim günlərdə hər kəs nə üçünsə belə düşünür və qəti əmindir ki, ona heç nə ola bilməz. Başqaları ölür, mən isə yaşayıram...

*Tərcümə və tərtib edən:*
**C.MƏMMƏDOV**